AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI

# RƏQƏMSAL TİCARƏT QOVŞAĞI

XÜSUSİ BURAXILIŞ

İyun - 2018

**«BİZ YENİ İQTİSADİ MODELƏ KEÇMƏKLƏ BUNDAN SONRA İQTİSADİYYATIMIZI ANCAQ İSLAHATLAR, İNNOVASİYALAR, TEXNOLOGİYALAR VƏ QEYRİ-NEFT SEKTORU HESABINA İNKİŞAF ETDİRƏCƏYİK».**

İLHAM ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti



# MÜNDƏRİCAT


- Rəqəmsal Ticarət Qovşağı(RTQ) haqqında ümumi məlumat 3
- RTQ-nin yaratdığı imkanlar 4
- e-Rezident və m-Rezident 5
- e-İmza və Asan İmza 6
- e-Sənəd 7
- e-Ödəniş 8
- e-İxrac əməliyyatları 9
- Onlayn Vahid İxrac Ərizəsi 10
- X-Road texnologiyası 12
- Sərbəst Satış Sertifikatı 13
- Rəqəmsal Ticarət Qovşağının əməkdaşlıq əlaqələri 14
- RTQ-nin dünya miqyasında təqdimatı 15
- Dünya təcrübəsi ilə müqayisə 18
- RTQ-nin faydası 19

# RƏQƏMSAL TİCARƏT QOVŞAĞI NƏDİR?




## HÜQUQİ ƏSASI

Rəqəmsal Ticarət Qovşağı Azərbaycan Respublikası Prezidentinin **22 Fevral 2017-ci il** tarixli «Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» Fərmanı əsasında yaradılıb.

**Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı** ölkədə elektron ticarətin infrastruktur bazasının daha da inkişaf etdirilməsi və Azərbaycan Respublikasının regionda rəqəmsal ticarət qovşağı kimi mövqeyinin gücləndirilməsi məqsədi ilə yaradılmış elektron dövlət-özəl tərəfdaşlıq platformasıdır.

# RƏQƏMSAL TİCARƏT QOVŞAĞININ YARATDIĞI İMKANLAR




## Biznes üçün

Onlayn vahid ixrac ərizəsi;
Gömrük bəyannamələrinin doldurulması;
e-İxrac təşviqi;
Sərbəst Satış sertifikatı;
Transsərhəd əməliyyatları;
İmzaların qarşılıqlı tanınması və validasiyası.

## Xarici investorlar üçün

Elektron və Mobil rezidentlik;
Elektron və Mobil imza;
Hüquqi şəxsin onlayn qeydiyyatı;
e-Ödəniş;
e-Sənəd;
Transsərhəd əməliyyatları;
İmzaların qarşılıqlı tanınması və validasiyası.

# ELEKTRON VƏ MOBİL REZİDENTLİK NƏDİR?

**Elektron və Mobil rezidentlik** qeyri-rezidentlərə Azərbaycan hökumətinin verdiyi rəqəmsal və mobil şəxsiyyətdir. Dünyanın istənilən yerindən sahibkarlar Azərbaycanda biznes qura, idarə edə və Azərbaycanın Rəqəmsal Ticarət Qovşağının təklif etdiyi sərhədlərarası elektron xidmətlərdən istifadə edə bilər.

Azərbaycan Dünyada Estoniyadan sonra e-Residentlik təklif edən 2-ci və m-Residentlik təklif edən 1-ci ölkədir.





**Elektron və Mobil İmza** fərdin **şəxsiyyətinin təsdiq olunması** üçün istifadə olunan **rəqəmsal vasitədir**. Bu imzaların sahibləri rəqəmsal mühitdə təhlükəsiz bir şəkildə özlərini identitikləşdirə və digər elektron xidmətlərdən istifadə edə bilərlər.

Qeyd: Elektron və Mobil İmza **yazılı imza ilə** bərabər **hüquqi əsasdadır**.

**Azərbaycanda elektron və mobil imza sertifikatı təqdim edən iki mərkəz fəaliyyət göstərir:**

- Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat-Hesablama Mərkəzi;
- Azərbaycan Respublikası Vergilər Nazirliyinin "ASAN" Sertifikat Xidmətləri Mərkəzi.

# E-SƏNƏD – ASANDOC PORTALI

AsanDoc Portalı, Rəqəmsal Ticarət Qovşağı daxilində yer alan sənədlərin idarə edilməsi sistemidir. Bu xidmət sənədsiz cəmiyyət təcrübəsini portal istifadəçilərinə təqdim edir. AsanDoc təhlükəsiz və etibarlı istifadəçi identifikasiyası ilə bütün növ sənədlərin onlayn paylaşılması və rəqəmsal imzalanması imkanını yaradır.

1. İstifadəçi (**1-ci tərəf**) Rəqəmsal Ticarət Qovşağında (Asan İmza ilə) şəxsiyyətini təsdiq edir.
2. İstifadəçi (**1-ci tərəf**) Mobil imza ilə imzalanacaq sənədi portala yükləyir.
3. İstifadəçi (**1-ci tərəf**) sənədi imzalayır və digər istifadəçi ilə (**2-ci tərəf**) paylaşır.
4. AsanDoc sənədə baxılması və imzalanması üçün **2-ci tərəfin** elektron poçtuna bildiriş göndərir.
5. **2-ci tərəf** Rəqəmsal Ticarət Qovşağında (Asan İmza ilə) şəxsiyyətini təsdiq edir və sənədlə tanış olduqdan sonra sənədi mobil imza vasitəsilə imzalayır.

# E-ÖDƏNİŞ

E-ödənişlər Rəqəmsal Ticarət Qovşağında **E-pul kisəsi ilə** həyata keçirilir.

1



İstifadəçi **Rəqəmsal Ticarət Qovşağına** daxil olaraq (email/şifrə, Asan İmza və ya E-imza) **qeydiyyatdan keçməklə hesab yaradır**.

2




Burada **bank kartı** və ya **digər üsullarla balansındakı vəsaitini artırır**.

3




**Elektron Pul Kisəsi** vasitəsilə **ödənişlərini ödəyir**.

4



**Ödəniş tarixçəsinə** baxa bilir.

# E-İXRAC ƏMƏLİYYATLARI

Portal sahibkarlara yerli qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı ixrac təşviqinin ödənilməsi üçün tələb olunan bütün prosedurların Rəqəmsal Ticarət Qovşağı vasitəsilə elektron qaydada aparılmasını təklif edir. Xidmət həm də Onlayn Vahid İxrac Ərizəsi vasitəsi ilə daha sürətli və asan şəkildə həyata keçirilə bilər.



# ONLAYN VAHİD İXRAC ƏRİZƏSİ




Sadəcə bir ərizə ilə ixracatçılara ixrac üçün lazım olan **bütün sənədlərin sürətli şəkildə** əldə edilməsinə imkan yaradan xidmətdir.

**Onlayn Vahid İxrac Ərizəsinin doldurulması sistemi** intellektual məntiqə əsaslanaraq qurulub.

İstifadəçi özü haqqında minimal məlumatları yalnız bir dəfə daxil etməklə sistem tərəfindən avtomatik olaraq müəyyən edilən digər zəruri məlumatları, o cümlədən idxal ölkəsi üçün tələb olunan sənədlər barədə məlumatı əldə edir.

# VAHİD ONLAYN İXRAC ƏRİZƏSİ




## ƏNƏNƏVİ

Müxtəlif qurumlara ayrı-ayrı ərizələrin təqdim edilməsi uzun zaman və xərclər tələb edir.

## ONLAYN VAHİD İXRAC ƏRİZƏSİ

Bir ərizə ilə daha qısa zaman və az vəsait sərf etməklə müxtəlif qurumlara təqdim olunur.







- Mənşə sertifikatı
- Baytarlıq Sertifikatı
- Gömrük bəyannaməsi
- Keyfiyyət sertifikatı
- Sərbəst Satış Sertifikatı
- Fitosanitar sertifikat
- Digər sənədlər

# X-ROAD TEXNOLOGİYASI

Rəqəmsal Ticarət Qovşağının X-Road texnologiyası əsasında yaradılmışdır. Bu texnologiya məlumat mübadiləsini həyata keçirən **ən təhlükəsiz və təkmil protokoldur**.

X-Road bir məlumat mənbəyi və şaxələndirilmiş qoruyucu bağlantılar vasitəsilə **aşağı qiymət** və **təkmilləşdirilmiş təhlükəsizliyi** təmin edir.



Dünyada ilk dəfə X-Road-ı tətbiq edən ölkə Estoniyadır. **Azərbaycan** bu texnologiyadan istifadə edən **ikinci ölkədir**.



# SƏRBƏST SATIŞ SERTİFİKATI

Azərbaycan məhsullarının bir çox ölkələrə ixracı üçün Sərbəst Satış Sertifikatının ("Free sales certificate") olması zəruridir. Sertifikat bir çox ölkələrdə icbari xarakter daşıyır və insan orqanizmi ilə təmasda olan qida, kosmetika, tekstil, tibbi cihazlar, gigiyenik vasitələr və s. məhsulların dövriyyəsində təhlükəsizliyin təmin edilməsi üçün tətbiq edilir.

SERTİFİKATIN VERİLMƏSİ ÜÇÜN AŞAĞIDAKİ SƏNƏDLƏR TƏLƏB EDİLİR:

- Şirkətin qeydiyyat şəhadətnaməsi
- Sərbəst satış sertifikatı tələb olunan malların siyahısı
- Keyfiyyət sertifikatı
- Malların uyğunluq sertifikatı
- (Qanunla nəzərdə tutulduğu halda) malların istehsalı üçün lisenziya
- Beynəlxalq eyniləşdirmə nömrəsi - barkod (əgər varsa)
- Ölkə ərazisində malların satışının təsdiqi (2-3 müştəriyə, faktura, çek və ya vergi hesab-faktura)

# RƏQƏMSAL TİCARƏT QOVŞAĞININ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ

**GazinformService.lə İmzalanmış Anlaşma Memorandumu**
19.10.2017

**GUAM ilə Anlaşma Memorandumunun** imzalanması (icra olunur)

**Asecco Data System ilə İmzalanmış Anlaşma Memorandumu**
19.10.2017



**İpək Yolu ilə Anlaşma Memorandumunun** imzalanması (icra olunur)

**İSESCO ilə İmzalanmış Anlaşma Memorandumu**
06.05.2017

**İmzalanmış Anlaşma Memorandumları: İSESCO, FutureTrust, GazinformService, Asecco, Microsoft, Şərq Tərəfdaşlığı Mərkəzi və Orientswiss** - bu müqavilələrin imzalanması transsərhəd əməliyyatlarının aparılmasına,qarşılıqlı imzaların tanınması və bununla da ölkələr arası biznes əlaqələrinin yaxşılaşdırılmasına, e-Ticarət və e-Kommersiyanın inkişafının asanlaşdırılmasına öz töhfəsini verəcək.

# RƏQƏMSAL TİCARƏT QOVŞAĞININ DÜNYA MİQYASINDA TƏQDİM OLUNMASI

Rəqəmsal Ticarət Qovşağının dünyada təqdimatı onun funksionallığının və əhatə dairəsinin artırılmasına xidmət edir.

RƏQƏMSAL TİCARƏT QOVŞAĞI BU ŞƏHƏRLƏRDƏ TƏQDİM EDİLİB:

- **Vaşinqton** - ABS-Azərbaycan əlaqələrinin 25 illiyinə həsr edilmiş tədbirdə;
- **Brüssel** - "EU4Business" adlı beynəlxalq toplantı və "FutureTrust" layihəsinin ümumi toplantısında;
- **Paris** - Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OCED) və SİGMA-nın birgə təşkilatçılığı ilə keçirilən nazirlər konfransında;
- **Şetsin** - Avropada ən böyük beynəlxalq forum hesab edilən elektron imza və etimad edilən xidmətlər üzrə XVII Avropa forumunda;
- **Brayton** - «mobileGov» Dünya Sammitində;
- **London** - "Avropa E-identifikasiya və Təhlükəsizlik Assosiasiyasının 30-cu illik" Konfransında;
- **Kiyev** - «Məlumat və telekommunikasiya sistemlərində informasiya təhlükəsizliyi» Konfransında;
- **Sankt-Peterburq** - açıq açar infrastrukturu və elektron imza problemləri üzrə "PKI-Forum Rusiya 2017" beynəlxalq konfransında;
- **Talin** - 4-cü Şərq Tərəfdaşlığı Forumunda "Talin Elektron İdarəetmə Konfransında";
- **Utrext** - IDnext rəqəmsal şəxsiyyət üçün Avropa şəbəkə və məlumat platformasında;
- **Kiyev** - GUAM Rəqəmsal Ticarət Qovşağı;
- **Rabat** - Azərbaycan İnnovasiyalarının Mərakeşdə tətbiq olunması ilə bağlı müzakirələrdə;
- **Haaqa** - "İllik İDnext identifikasiya və ödəniş tədbiri"-ndə;
- **Belqrad** - «FutureTrust» Layihəsinin müzakirələrində;
- **Münix** - «Avropa İdentifikasiya və Bulud Konfransı 2018»-də;
- **London** - "Azərbaycan: Beynəlxalq investisiya üçün hazırdır?" konfransında

VƏ DAHA BİR ÇOX ŞƏHƏRLƏRDƏ.

# RƏQƏMSAL TİCARƏT QOVŞAĞININ DÜNYA MİQYASINDA TƏQDİM OLUNMASI

- DR. ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TUVEYCRİ - **İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatnın baş direktoru**;
- MİXAİL KORB - **Estoniyanın Dövlət İdarəçiliyi naziri**;
- İNGRİD ROSTEN - **"Silikon Vadisi"nin nümayəndəsi**;
- SAM POTOLİKKİO - **ABŞ-ın Corctaun Universitetinin təmsilçisi**;
- MAYKL HARMS - **Almaniya Şərqi Avropa İqtisadi Əlaqələri Komitəsinin icraçı direktoru**

kimi tanınmışlar Rəqəmsal Ticarət Qovşağı barədə müsbət fikirlərini paylaşıblar.

Linkə daxil olun: www.youtube.com/watch?v=I8YMiplyi_I



# RƏQƏMSAL TİCARƏT QOVŞAĞININ DÜNYA MİQYASINDA TƏQDİM OLUNMASI



Rəqəmsal Ticarət Qovşağı Azərbaycana səfər edən **GUAM-a üzv dövlətlərin** nümayəndələrinə**, Visa İnc. Şirkətinin**, **Dünya Kiçik və Orta sahibkarlar forumunun** təmsilçilərinə, **Almaniya İqtisadiyyatının Şərq Komitəsinin** və **Fransanın MDB ölkələri üzrə Regional** rəhbərliyinə, **Estoniyanın dövlət idarəçiliyi nazirinə, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Milli Müdafiə Kollecinin** nümayəndələrinə, **xarici ölkələrin Azərbaycandakı səfirlərinə**, "B.EST Solutions" Azərbaycan şirkətinin təşkilatçılığı ilə "SMART Mobile Azerbaijan" adlı konfransa **Rusiya, Ukrayna, Mərakeş, İran, Özbəkistan, Əfqanıstandan** qatılan nümayəndələrə və digər rəsmilərə təqdim olunub.



**AZƏRBAYCANIN RƏQƏMSAL TİCARƏT QOVŞAĞI dünyada 2-ci Avropada** isə **1-ci** hesab olunur. İlk dəfə B.Britaniyada, sonra Azərbaycanda, daha sonra isə Malayziyada, BƏƏ-də və Taylandda yaradılıb.






## BÖYÜK BRİTANİYA

**www.great.gov.uk**

Böyük Britaniyada biznes qurmaq, investor olmaq, turizm və təhsil məqsədi ilə səfər etmək istəyənlər üçün geniş məlumatları özündə cəmləyib.

## MALAYZİYA

**Mydftz.com**

Rəqəmsal Azad Ticarət Zonası şəklində kiçik və orta sahibkarlara dəstək göstərməyə istiqamətlənib.



# RƏQƏMSAL TİCARƏT QOVŞAĞININ FAYDASI

- **Transsərhəd ticarətin**, o cümlədən **elektron ticarətin** əhatə dairəsinin **genişləndirilməsini təmin edir**;
- İnformasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəni təmin etməklə **ixrac potensialının yüksəldilməsinə** müsbət təsir göstərir;
- Elektron imzaların qarşılıqlı tanınmasını həyata keçirməklə sahibkarların **xarici tərəfdaşlarla əlaqələrini** daha da **asanlaşdırır**, **həm vaxta, həm də pula qənaət** etmələrinə səbəb olur.





